

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 179 (20.833)

25 sentyabr 2013-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun seçkiləri müşahidə missiyasının rəhbəri xanım Tana de Zuluetanı qəbul etmişdir.

Görüşdə Azərbaycanda qarşıdan gələn prezident seçkiləri üzrə görülən hazırlıq işlərinin vəziyyəti və seçkilərin keçirilməsi ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Sentyabrın 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Serbiya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zoran Vayoviçlə görüşmüşdür.

Qonağı səmimiyyətlə salamlayan Ali Məclisin Sədri onu Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda görməkdən məmnunluğunu bildirmişdir. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ermənistanın hərbi təcavüzü nəticəsində uzun müddətdir, blokada şəraitində yaşayır. Lakin buna baxmayaraq, muxtar respublikada iqtisadiyyatın bütün sahələri inkişaf etdirilir. Kənd təsərrüfatı, sənaye, təhsil, səhiyyə, mədəniyyət sahələrində mühüm uğurlar qazanılmış, ərzaq təhlükəsizliyi təmin olunmuşdur. Eyni zamanda elm və təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilmiş, dünya təhsil sisteminə inteqrasiya istiqamətində mühüm addımlar atılmışdır.

Ali Məclisin Sədri Zoran Vayoviçin səfərinin Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Serbiya arasında əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıdığını bildirmiş, ona ölkəmizdəki diplomatik fəaliyyətində uğurlar arzulamışdır.

Səmimi qəbula görə minnətdarlıq edən Zoran Vayoviç muxtar respublikada ilk dəfə olduğunu, qədim Azərbaycan torpağı olan Naxçıvanın sürətlə inkişaf etdiyini bildirmişdir. Səfir ulu öndər Heydər Əliyev tərəfindən Naxçıvanda əsası qoyulan inkişaf xəttinin Azərbaycanı tərəqqiyə qovuşdurduğunu, siyasi və iqtisadi qüdrətinin durmadan artırdığını qeyd etmişdir. Azərbaycan və Serbiya arasında iqtisadi, mədəni və digər sahələrdəki münasibətlərin məmnunluq doğurduğunu bildirən qonaq fəaliyyəti dövründə Naxçıvan Muxtar Respublikası ilə də qarşılıqlı əlaqələrin inkişafında səyini əsirgəməyəcəyini bildirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Mərkəzi Seçki Komissiyasında seminar-treninq keçirilmişdir

***Sentyabrın 24-də Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasında muxtar respublikada yerləşən dairə seçki komissiyalarının sədrlərinin, Naxçıvan şəhəri üzrə 37 məntəqə seçki komissiyasının sədr, katib və üzvlərinin, həmçinin seçkilərə 5 gün qalmış yaradılacaq 24 qapalı seçki məntəqəsi sədrlərinin iştirakı ilə səsvermə prosesi, seçki bülletenləri və səsvermə protokollarının doldurulması qaydaları ilə bağlı seminar-treninq keçirilmişdir.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov açaraq çıxış etmişdir. Bildirilmişdir ki, seçki günü məntəqə seçki komissiyası üzvlərinin öz vəzifələrini düzgün icra etməsi və səsvermə protokollarının qanunauyğun doldurulması, səsvermənin nəticələrinin müəyyən olunması baxımından seminar iştirakçıları bu treninqlərdə toxunulan məsələlərə diqqətlə yanaşmalı, daim öz üzərlərində işləməli və qanunvericiliyi mənimsəməlidirlər. Qeyd edilmişdir ki, məntəqə seçki komissiyasının sədri komissiyanın işinə ümumi rəhbərlik edir, komissiya üzvləri arasında iş bölgüsü aparır, səsvermənin başlanmasını və qurtarmasını elan edir, seçki məntəqəsində səsvermə qaydalarına əməl olunmasını təmin edir və qanunla onun üzərinə qoyulmuş digər vəzifələri icra edir. Katiblər komissiya sədrinin göstərişlərini və onlara verilən səlahiyyətləri icra edir. Məntəqə seçki komissiyası sədrinin tapşırığına əsasən, katib beynəlxalq və yerli müşahidəçilərin siyahısını tərtib edir, sədr seçki məntəqəsində olmadıqda, onun tapşırığı ilə səsvermə yerində qayda-qanuna və ümumi vəziyyətə nəzarəti həyata keçirir. Səsvermə günü seçki məntəqəsində yalnız məntəqə seçki komissiyasının üzvləri, Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyasının nümayəndələri, seçki komissiyasının məşvərətçi səs hüquqlu üzvləri, akkreditasiyadan keçmiş yerli və beynəlxalq müşahidəçilər, qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, siyasi partiya, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, o cümlədən KİV nümayəndələri, xidməti geyim formasında olan polis işçiləri (yalnız məntəqə seçki komissiyası sədrinin dəvəti ilə ictimai asayişi bərpa etmək üçün), müvafiq mütəxəssislər (məntəqə seçki komissiyası sədrinin dəvəti ilə texniki problemləri həll etmək üçün; onlar vəzifələrini icra edən kimi seçki məntəqəsini tərk etməlidirlər) və seçicilər ola bilərlər.

Müşahidəçilərin məntəqə seçki komissiyası işə başladığı vaxtdan səslərin hesablanması prosesi də daxil olmaqla, səsvermənin nəticələri haqqında protokolun rəsmiləşdirilməsi başa çatanadək seçki məntəqəsindəki bütün hərəkətləri, o cümlədən seçki komissiyasının iclaslarını müşahidə etmək, seçici siyahıları ilə tanış olmaq, seçki məntəqəsi açılmazdan əvvəl gözlə görünməyən mürəkkəbin və ultrabənövşəyi lampanın yoxlanmasında iştirak etmək, qeydə alınmış namizədlərlə, onların nümayəndələri və vəkilləri ilə görüşmək, daşınan seçki qutusunu müşayiət etmək, səslərin sayılmasını müşahidə etmək, səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyasının və dairə seçki komissiyasının rəsmi protokolunun təsdiq olunmuş surətini almaq, həmçinin seçki komissiyasına təklif və iradlarla müraciət etmək, seçki sənədlərinin məntəqə seçki komissiyasından dairə seçki komissiyasına və oradan Mərkəzi Seçki Komissiyasına aparılmasını müşahidə etmək hüququ vardır.



Vurğulanmışdır ki, əgər seçici seçki bülletenini korlayıbsa, ona yeni bülleten verilməsini xahiş edə bilər. Seçki bülleteninin verilməsinə məsul olan məntəqə seçki komissiyasının üzvü korlanmış seçki bülletenini seçicidən almalı, korlanmış seçki bülletenini yarı kəsməklə ləğv etməli, bülleteni korlanmış seçki bülletenləri üçün nəzərdə tutulmuş ayrıca zərfə qoymalı, seçiciyə yeni seçki bülleteni verməli və bu barədə seçicilər siyahısında seçicinin soyadından sağda müvafiq qeyd etməlidir.

Seçki bülletenini almaq və ya doldurmaq üçün yardıma ehtiyacı olan seçici kömək üçün məntəqə seçki komissiyasının üzvləri və müşahidəçilər istisna olmaqla, aktiv seçki hüququ olan başqa şəxsə müraciət edə bilər. Seçiciyə seçki bülletenini almaqda və ya doldurmaqda kömək edən şəxs öz inisialını və soyadını göstərməklə seçici siyahısının "seçicinin seçki bülletenini alması haqqında imza" qrafasında imza etməlidir.

Seçki günü Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət və ya müvəqqəti şəxsiyyət vəsiqəsi ilə, vətəndaşlığı olmayan şəxslər vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi ilə, qaçqın və məcburi köçkünlər qaçqın və məcburi köçkünlərin vəsiqəsi ilə, hərbi xidmətdə olan əsgərlər hərbi biletlə, zabitlər isə zabitin şəxsi vəsiqəsi ilə səs verə bilərlər. Azərbaycan Respublikasının diplomatik və xidməti pasportu ilə isə yalnız Azərbaycan Respublikasının hüdudlarından kənarda səs vermək mümkündür.

İclasda 6 saylı Culfa-Babək Seçki Dairəsi dairə seçki komissiyasının sədri Əzim Əzimov səsvermə protokollarının doldurulması qaydalarını slaydlarla izah etmişdir.

Sonra 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsi dairə seçki komissiyasının katibi Ramal Salmanov çıxış edərək Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Bakı şəhərində təşkil etdiyi treninqdə keçilmiş mövzular barədə məlumat vermişdir.

Tədbirə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov yekun vurmuşdur.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti***

**Naxçıvan Muxtar Respublikasında ödəniş sistemlərinin təkmilləşdirilməsi, nağdsız ödəmələrin azaldılması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir. Bu tədbirlərin yüksək sürətlə həyata keçirildiyi bölgələrimizdən biri də Babək rayonudur.**

## Nağdsız ödənişlərin üstünlükləri ilə bağlı maarifləndirmə tədbirləri aparılır

Rayon Vergilər Şöbəsindən aldığımız məlumata görə, 24 sentyabr tarixə rayonda 17 POS-terminal, 86 nəzarət-kassa aparatı fəaliyyət göstərir. Ciddi hesabat blankları tətbiq edilmiş obyektlərin sayı isə 33-ə çatdırılıb. Əhali arasında nağdsız ödənişlərin üstünlükləri barədə məlumatlandırma işləri sürətləndirilib, nağd puldan istifadə edən zaman pul itkisi ilə üzləşmə hallarının qaçılmaz olduğu vətəndaşların diqqətinə çatdırılıb. Əhalidə yüksək ödəniş mədəniyyətinin formalaşdırılması, insanlara elektron ödəniş xidmətlərindən və nağdsız ödəniş alətlərindən istifadə vərdişlərinin aşılanması, ödəniş kartlarının üstünlükləri və imkanları, habelə kredit təşkilatlarının, pərakəndə ticarət, iaşə və digər xidmət müəssisələrinin və kart sahiblərinin hüquq və öhdəlikləri haqqında ictimaiyyətə daha ətraflı məlumatın təqdim edilməsi keçirilən görüşlərin əsas məqsədlərindən olub.

Məlumatda o da bildirilir ki, dövlət və özəl müəssisələrdən 1629 vergi ödəyicisinin qeydə alındığı rayonda aparılan operativ vergi nəzarəti tədbirləri zamanı əhali ilə pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması ilə bağlı 4 vergi ödəyicisinə maliyyə sanksiyası tətbiq edilib. Vergi orqanlarında uçotda durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan bir şəxs aşkar edilib. Fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını həyata keçirən 3 vətəndaşa cərimə tətbiq olunub. Cari ildə rayon Vergilər Şöbəsi tərəfindən valyuta sərvətlərinin ictimai yerlərdə alınıb-satılması və ya dəyişdirilməsi faktları aşkar edilməyib. Vergi nəzarəti tədbirləri davam etdirilir.

**Xəbərlər şöbəsi**

# Xalqın iradəsinin seçkilərin nəticələrində tam şəkildə əksini tapacağı şübhəsizdir

***Ümummilli liderimiz Heydər Əliyevin uzaq gələcəyə hesablanmış strategiyasının nəticəsidir ki, yüksək iqtisadi inkişaf ölkəmizdə demokratik prinsiplərin möhkəmlənməsinə zəmin yaradır. İnsan və vətəndaş hüquq və azadlıqlarının təminatının müdafiəsinə nail olunur, vətəndaşların dövlətin idarə olunmasında fəallığı artır. Bu, bütün dövlətlərdə demokratik prinsiplərə əməl olunmasının əsas göstəricisidir.***

Vətəndaşların dövlətin idarə olunmasında fəal iştirakını təmin etmək üçün mükəmməl qanunvericilik bazası mövcuddur. Seçki Məcəlləsi Avropa təcrübəsinə uyğundur və onun daha mükəmməl olması üçün ardıcıl müzakirələr aparılır, ona əlavə və dəyişikliklər edilir. İndiyədək Seçki Məcəlləsində edilmiş bir sıra dəyişikliklər beynəlxalq ekspertlər tərəfindən yüksək dəyərləndirilib. Onlar birmənalı şəkildə bildiriblər ki, Azərbaycanda seçkilərin demokratik keçirilməsi, demokratik prinsiplərin möhkəmlənməsi dövlətin marağındadır.

Bu, fakdır ki, ölkəmizdə bütün sahələrdə sosial-iqtisadi və hüquqi islahatlar keyfiyyətlə aparılır. Qeyd etdiyimiz kimi, bunun üçün mükəmməl Konstitusiyamız, mövcud qanunvericilik bazamız, dövlətin və xalqın birgə iradəsi var.

Azərbaycan Respublikasının Konstitusiyasına görə, dövlətin idarə olunması demokratik ölkələrdə qəbul olunmuş prinsiplərə tam cavab verir. Yəni ölkədə dövlət hakimiyyətləri hakimiyyətlərin bölünməsi prinsipinə əsaslanır. Qanunvericilik hakimiyyətini Milli Məclis həyata keçirir. İcra hakimiyyəti Prezidentə məxsusdur, məhkəmə hakimiyyətini isə məhkəmələr həyata keçirirlər. Amma idarəçilik formasına görə, ölkəmiz prezidentli respublika olduğundan Konstitusiya ilə Prezident çox geniş səlahiyyətlərə malikdir. Prezident dövlətin başçısıdır, Silahlı Qüvvələrin Ali Baş Komandanıdır, istər ölkə daxilində, istərsə xarici münasibətlərdə dövləti təmsil edir, dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün, vətəndaşların hüquqlarının təminatçısıdır. Bütün bunlar Əsas Qanunumuzun 109-cu maddəsində aydın və birmənalı şəkildə təsbit olunub.

Məhz bunlara görə ölkəmizdə prezident seçkiləri həmişə ciddi kampaniyaya çevrilir. Hər bir dövlət orqanı, ayrı-ayrı siyasi partiyalar, qurumlar, bütövlükdə, xalqımız, o cümlədən beynəlxalq təşkilatlar da prezident seçkilərinin son dərəcə yüksək səviyyədə, demokratik, şəffaf, seçicilərin iradəsinə tam uyğun keçirilməsi üçün səy göstərirlər.

Azərbaycan Respublikası Prezidenti seçkilərinin əsasları Konstitusiyanın 100-102-ci maddələrində təsbit olunub. Prezident seçkilərinin hazırlanıb keçirilməsi, səsvermənin nəticələrinin və yekunlarının müəyyən edilməsi Seçki Məcəlləsi ilə qanunvericiliyə uyğun həyata keçirilir. Məcəlləyə uyğun olaraq, seçki komissiyaları vətəndaşların seçki hüquqlarının həyata keçirilməsini və müdafiəsini təmin edir, həmin hüquqlara riayət olunmasına nəzarət edir. Seçki komissiyaları sərbəst və müstəqildirlər, nə dövlət hakimiyyət orqanlarından, nə bələdiyyə qurumlarından, nə də hansısa fiziki və ya hüquqi şəxsdən asılı deyillər. Sadaladığımız bu qurumların seçki komissiyalarının fəaliyyətinə müdaxilə etməsi mövcud qanunvericiliklə tam qadağandır.

Prezident seçkilərində hər bir namizədə, onun nümayəndəsinə namizədin təbliğ olunması üçün eyni cür şərait yaradılır. Təşviqat materialları tam bərabər səviyyədə yerləşdirilir. Seçicilər üçün də ideal şərait yaradılıb. Əvvəllər seçici adının siyahıda olmadığı halda bu hüququnu məhkəmə yolu ilə bərpa etməli olurdu. Bu məsələ çox sadələşdirilib. Seçici seçki günü yaşadığı ərazidə olmayacağını bilsə belə, səsvermədə iştirak etmək üçün ciddi problemlərlə üzləşməli olurdu. İndi bu məsələ, demək olar ki, tam həllini tapıb. O, səs verəcəyi dairədən çıxarış vəsiqəsi alıb istənilən ünvanda səsvermək hüququ qazanır. Bu, son dərəcə demokratik, obyektiv qərardır, vətəndaşların dövlətin idarə olunmasında iştirakını təmin etmək üçün dövlətin yaratdığı geniş imkanlardır.

2009-cu il martın 18-də Konstitusiyada bir sıra əlavə və dəyişikliklər edilməsi zərurəti yarandı. Bu dəfə Konstitusiyada referendum yolu ilə qəbul olunan əlavə dəyişikliklər vətəndaşların hüquq və azadlıqlarının təminatını daha da genişləndirdi.

Konstitusiyanın 101-ci maddəsinin V hissəsi çıxarıldı və ora başqa bir bənd əlavə olundu. 101-ci maddənin V hissəsində deyilirdi: "Heç kəs iki dəfədən artıq təkrarən Azərbaycan Respublikasının Prezidenti seçilə bilməz". Azərbaycan xalqının istədiyi şəxsi hər hansı məhdudiyyət olmadan istədiyi qədər Prezident seçmək haqqı var. Ona görə də xalqın seçmək və vətəndaşların seçilmək hüququnun məhdudlaşdırılmasının aradan qaldırılması çox vacib idi. Bu həm də insan hüquq və azadlıqlarının daha geniş şəkildə qorunmasına təminat verdi.

Dünya ölkələrində prezidentlər müxtəlif qaydada seçilirlər. Bəzi dövlətlərdə onlar vətəndaşların birbaşa səsverməsi yolu ilə, bəzilərində isə parlament yolu ilə seçilirlər. Prezidentlərin səlahiyyət müddəti də müxtəlif olur. Məsələn, İtaliya və Türkiyədə 7 il, Avstriyada və Finlandiyada bu müddət 6 il müəyyənləşdirilib. Rusiyanın Dövlət Duması isə Prezidentin səlahiyyət müddətinin 4 ildən 6 ilədək uzadılması barədə qərar qəbul edib. Bütün ölkələrin konstitusiyalarında tarixi inkişafla bağlı vaxtaşırı islahatlar həyata keçirilir.

Azərbaycan da belə inkişaf etmiş ölkələrdəndir. Bir şəxsin iki dəfədən artıq Prezident seçilməsi heç vaxt demokratiyaya zidd ola bilməz. Əksinə, bu, demokratiyanın bəxş etdiyi bir zərurətdir. Məsələn, dünyada inkişaf etmiş demokratik dövlət kimi tanınan Amerika Birləşmiş Ştatlarında belə bir hal baş vermiş və bu, həmin ölkə üçün çox yaxşı nəticələnmişdir. ABŞ-ın 32-ci Prezidenti Franklin Ruzvelt xalqın seçimi ilə dörd dəfə ard-arda bu ölkəyə ali rəhbər seçilib. Fransa kimi demokratik bir ölkədə də Prezident seçicilərin iradəsinə uyğun olaraq, dəfələrlə seçilə bilər. Bu ölkədə də prezident seçkilərində hər hansı bir məhdudiyyət yoxdur.

Artıq ölkəmiz demokratik, şəffaf, azad və ədalətli seçkilər keçirilməsində hətta Avropanın inkişaf etmiş bir sıra ölkələrini də geridə qoyub. Bunu indiyədək seçkiləri izləmiş beynəlxalq müşahidəçilərin rəyləri də təsdiqləyir. Bütün bunlar, əlbəttə, ölkəmizin demokratik imicini daha da yüksəltməkdədir.

Bir hüquqşünas kimi müstəqillik dövrümüzdə keçirilən bütün seçkiləri müşahidə etmişəm, qanunvericiliyin yaradılmasını, möhkəmləndirilməsini ardıcıl izləmişəm, müqayisəli təhlillər aparmışam. Qanunvericilik ardıcıl olaraq təkmilləşdirilib və bütün bunlar istər namizədlər, istərsə də seçicilər üçün daha əlverişli şərait yaradılmasına xidmət edib. Bu da onu təsdiqləyir ki, Azərbaycan dövləti 1993-cü ildən bəri demokratik seçki keçirmək iqtidarında olub, bu sahədə güclü iradə nümayiş etdirib.

***Bu gün ədliyyə işçilərinin qarşısında duran mühüm vəzifələrdən biri vətəndaşlarımızı maarifləndirmək, dövlətin idarə olunmasında onların iştirakını, seçki hüquqlarından səmərəli istifadə etmələrini izah etməkdir. Əminliklə deyə bilərəm ki, vətəndaşlarımız çox fəaldırlar, konstitusion hüquqlarından maksimum istifadə etməyə israrlıdırlar. Bu, demokratik inkişaf üçün vacib göstəricidir. Xalqımız bir daha sübut edəcək ki, Azərbaycanda bütün seçkilər tam demokratik, şəffaf, xalqın iradəsinə cavab verən formada keçirilir.***

**Zülfüqar ƏHMƏDOV**
***Sədərək Rayon Məhkəməsinin hakimi***

# Akademik İsmayıl Hacıyev: *"Naxçıvan tarixi"* çoxcildliyi Naxçıvanşünaslığa layiqli töhfə olacaq

**Son dövrlər elmi ictimaiyyətin əsas müzakirə mövzularından biri "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması ilə bağlıdır. Çoxcildliyin hazırlanması sahəsində son vəziyyəti öyrənmək üçün AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevə müraciət etdik:**

*– Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə" Sərəncamına əsasən, bu il çoxcildliyin birinci cildinin hazırlanması və çapa təqdim olunması nəzərdə tutulur. Hazırda bu istiqamətdə hansı işlər görülür?*

– Qeyd etdiyiniz kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamına əsasən, "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşri nəzərdə tutulmuşdur. Bununla əlaqədar AMEA Naxçıvan Bölməsinin və Naxçıvan Dövlət Universitetinin qarşısına mühüm vəzifələr qoyulmuşdur.

Məlumdur ki, Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra tariximizin öyrənilməmiş bir sıra sahələrinə diqqət artırılmış, həmin istiqamətdə tədqiqatlar aparılmağa başlanılmışdır. Naxçıvan tarixi ilə bağlı da araşdırmalara başlanılmışdır. 1996-cı ildə "Uluslararası qaynaqlarda Naxçıvan" Beynəlxalq Simpoziumundan sonra bu sahəyə diqqət xeyli artırılmışdır. Nəticədə, Naxçıvan tarixi ilə bağlı maraqlı tədqiqatlar aparılmış, onlarla kitab və monoqrafiyalar, yüzlərlə məqalələr yazılmışdır. Adıçəkilən sərəncamda qeyd olunduğu kimi, "Naxçıvan tarixinə dair bir sıra elmi nəşrlər meydana çıxmışdır. Son dövrlərdə aparılan araşdırmalar nəticəsində Naxçıvanın mədəniyyəti, tarixi və abidələri, arxeologiya və etnoqrafiyası... müxtəlif tədqiqatların predmetinə çevrilmiş, yeni elmi istiqamətlər müəyyənləşdirilmiş və bir sıra nəticələr əldə olunmuşdur".

Bütün bunlar imkan vermişdir ki, "Naxçıvan tarixi" kimi fundamental və Naxçıvan diyarının bütün dövrlərini əhatə edə bilən çoxcildli kitab yazılsın.

"Naxçıvan tarixi" çoxcildliyinin yazılmasına keçən ilin axırlarından başlanılmışdır. İlk növbədə, üç cild olacaq "Naxçıvan tarixi"nin hər bir cildini əhatə edəcək dövr müəyyənləşdirilmiş, plan-prospekt tərtib edilmiş, hər cildin müəllifləri seçilmişdir.

2013-cü il yanvarın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması sahəsində görülən işlər və qarşıda duran vəzifələr mövzusunda müşavirə keçirilmişdir. Müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri mövcud vəziyyəti dinləmiş, tövsiyə və tapşırıqlarını vermişdir.

"Naxçıvan tarixi" çoxcildliyinin birinci cildi Naxçıvanın ən qədim dövrdən XVIII əsrin ortalarınadək, yəni xanlıqlar zamanınadək olan dövrünü əhatə edəcəkdir. Birinci cild giriş, 7 fəsil, xronologiya, ədəbiyyat siyahısı, xəritə və illüstrasiyalardan, şəkillərdən ibarətdir. Kitabın birinci cildi artıq tamamlanmaq üzrədir və yaxın günlərdə çapa veriləcəkdir.

*– Çoxcildliyin ayrı-ayrı cildlərinə müvafiq dövrlərə aid şəkillər, xəritələr, illüstrativ materiallar, sxemlər, cədvəllər daxil edilməsi nəzərdə tutulmuşdur. Bu istiqamətdə hansı işlər həyata keçirilir?*

– Yuxarıda birinci cildlə əlaqədar bu barədə bəzi fikirlər söylədim. İşçi qrupu hər üç cilddə olacaq xəritələri, şəkilləri, illüstrativ materialları, cədvəlləri və başqa əlavələri tərtib etmişdir. Bu qəbildən olan yüzə yaxın material birinci cildə daxil edilmişdir. Sonrakı cildlərə daxil ediləcək materiallar redaksiya heyətində müzakirə olunduqdan sonra müvafiq cildlərin əlavəsində veriləcəkdir. Bu barədə elə bir çətinlik yoxdur. Xəritələr "Naxçıvan tarixi atlası" üçün işlənmişdir. Hər cildə daxil olacaq xəritələr oradan seçilmişdir. Arxeoloji qazıntılar nəticəsində əldə olunmuş maddi-mədəniyyət nümunələrinin arxeoloq alimlər tərəfindən şəkilləri və illüstrasiyaları hazırlanmışdır. Onların içərisindən kitabın əhatə etdiyi dövrə uyğun olanlar seçilmişdir. Müvafiq dövrə aid tarix və mədəniyyət abidələrinin şəkilləri Naxçıvan abidələri pasportlaşdırılarkən çəkilmişdir. Digər xarakterli sxemlər və cədvəllər də müxtəlif tədqiqatçıların tədqiqatlarında, toplanmış materiallarda mövcuddur, onlardan istifadə olunacaqdır.

*– Çoxcildliklə bağlı aparılan ilkin müzakirələr zamanı birinci cilddə Naxçıvan tarixinin qədim dövrlərdən XVIII əsrin ortalarınadək olan dövrünün əksini tapması nəzərdə tutulmuşdu. Birinci cildin xronoloji çərçivəsi dəqiq müəyyənləşibmi? Mümkünsə, bu cildə daxil ediləcək fəsillər haqqında məlumat verərdiniz.*

– "Naxçıvan tarixi" çoxcildliyinin cildlərini əhatə edəcək dövr seçilərkən Azərbaycan tarixinin dövrləşməsində mövcud prinsiplər əsas götürülmüşdür. Artıq yüz illərdir ki, bu dövrləşmə müzakirə olunur və dəqiqləşmələr aparılmışdır. Biz "Naxçıvan tarixi"ndə də bu dövrləşməni gözləmişik. Birinci cildin, eləcə də sonrakı cildlərin xronoloji çərçivəsi dəqiq müəyyənləşdirilmişdir. Qeyd etdiyimiz kimi, birinci cild Naxçıvanın ən qədim dövrdən xanlıqlar dövrünədək, ikinci cild XVIII əsrin ortalarından (xanlıqlar dövründən) İkinci Dünya müharibəsinədək, üçüncü cild isə İkinci Dünya müharibəsindən günümüzədək olan dövrü əhatə edəcəkdir. Təbii ki, Naxçıvan tarixini əhatə edəcək dövrlər müxtəlif fəsillərdə öz əksini tapacaqdır.

"Naxçıvan tarixi"nin birinci cildi 6 fəsildə nəzərdə tutulmuşdu. İş prosesində bir fəsil də artırılmışdır. I cild 7 fəsildən ibarət olacaq. Bu cild "Naxçıvan ən qədim dövrdə", "Naxçıvan e.ə. IX – b.e. II əsrlərində", "Naxçıvan ərazisində yaşayan əhalinin etnogenezi məsələsinə dair", "Naxçıvan erkən orta əsrlər dövründə", "Naxçıvan X-XIII əsrin I rübündə", "Naxçıvan XIII-XV əsrlərdə", "Naxçıvan Səfəvilər dövründə" adlanan fəsillərdən ibarətdir. Fəsillərin adlarından da aydın olur ki, bəhs olunan dövr fəsillərdə ifadə olunur.

*– Ötən illərdə olduğu kimi, bu il də muxtar respublikamızın müxtəlif ərazilərində arxeoloji ekspedisiyalar tədqiqatlar aparmışdır. Bu tədqiqatlar zamanı aşkara çıxarılan yeni faktlar çoxcildlikdə öz əksini tapacaqmı?*

– Naxçıvan ərazisində XIX əsrdən arxeoloji tədqiqatlar aparılır. 2006-cı ildən isə beynəlxalq arxeoloji ekspedisiyalar fəaliyyət göstərir. "Naxçıvan tarixi" çoxcildliyinin bir mühüm əhəmiyyəti arxeoloji ekspedisiyaların əldə etdikləri nəticələrin bu kitabda əksini tapmasıdır. Bir neçə faktla fikrimi çatdırmaq istəyirəm. Son illərə qədər Naxçıvan ərazisində ən qədim insanların Daş dövründən yaşaması Qazma mağarasının materialları əsasında əsas götürülürdü və bunun tarixi 80-100 min il hesab edilirdi. Şərur rayonu ərazisindəki Ovçular təpəsində qazıntı nəticəsində əldə olunan iki əmək aləti bunun 500-300 min il əvvələ təsadüf etdiyini göstərir. Ovçular təpəsində aparılan araşdırmalar Naxçıvanın qədim mədəniyyətin, xüsusilə Kür-Araz mədəniyyətinin beşiyi olduğunu və bu mədəniyyətin V-IV minilliyə aid olduğunu göstərir. Yaxud Oğlanqalada aparılan arxeoloji tədqiqatlar nəticəsində bu ərazidə müstəqil dövlətin olması, bunun Urartuya tabe olmaması və ona qarşı mübarizə aparması təsdiq olunur. Duzdağdakı ekspedisiya yeni faktlar aşkara çıxarmışdır. Beynəlxalq arxeoloji ekspedisiya sübut etmişdir ki, Duzdağ ərazisindən e.ə. V minillikdən duz çıxarılır və bu, dünyanın ən qədim duz çıxarılan mədənidir. I Kültəpə ərazisində hələ keçən əsrin 50-70-ci illərində O.Həbibullayevin rəhbərliyi ilə arxeoloji tədqiqatlar aparılmış və bu abidənin tarixi e.ə. V minilliyə aid edilmişdir. Beynəlxalq ekspedisiya üzvləri bu il I Kültəpədə yenidən tədqiqatlara başlamış və maraqlı nəticə əldə olunmuşdur. Onların fikrincə, bu abidənin tarixi 7 min ildən çoxdur.

Əlbəttə, qeyd olunan və olunmayan faktlar çoxcildlikdə nəzərə alınacaqdır.

*– İkinci və üçüncü cildlərin hazırlanması istiqamətində işlərdən danışaq. O cildlərə daxil ediləcək fəsillər üzərində iş paralel olaraq gedirmi?*

– "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması ilə bağlı məlum sərəncamdan sonra qarşıda duran əsas vəzifə fəsilləri yaza biləcək müəlliflərin seçilməsi idi. Təbii ki, müəllifləri seçərkən onların elmi potensialları və tədqiqat istiqamətləri əsas götürülmüşdür. Bütövlükdə, 30 müəllif və 10 nəfər işçi qrupu müəyyənləşdirilmişdir. Bütün fəsillər, hətta fəsillərdəki paraqraflar müəlliflərə təklif edilmiş, bir sözlə, müəlliflər seçilmişdir. Kitabın ikinci və üçüncü cildlərinin müəllifləri məlumdur və paralel olaraq onlar tapşırılan fəsillər üzərində işləyirlər. Həmin müəlliflərlə də bir neçə dəfə görüşmüş, vəzifələr müəyyənləşdirmiş və qarşıya çıxan məsələləri yerindəcə həll etmişik. Bir neçə müəllifi elmi ezamiyyəyə göndərmişik. Birinci cilddən fərqli olaraq, II və III cildlərin yazılmasında vaxt imkanı istənilən qədərdir. Oktyabr ayında növbəti cildlərin müəllifləri ilə yenidən görüşəcək, vəziyyətlə tanış olacağıq. Bu cildlər üçün material zənginliyi də işimizi bir qədər asanlaşdırır.

Ümumiyyətlə, "Naxçıvan tarixi" çoxcildliyi Naxçıvanşünaslığa layiqli töhfə olması üçün əlimizdən gələni edəcəyik. Həmin kitabların vaxtında işıq üzü görməsi üçün onlar müəyyən edilən vaxtda nəşriyyata təqdim ediləcək.

***– Maraqlı müsahibəyə görə sağ olun.***

**Müsahibəni apardı:**

**Elnur KƏLBİZADƏ**

# Salam, dağ kəndi

***D**ünyanın yeddi möcüzəsi kimi meydan oxuyan təbiət çalarları bizim yurd-yuvamıza şamil edilə bilməz, nədən ki, Naxçıvan belə möcüzələr diyarıdır. Burada min kilometrlərlə uzanıb gedən Tayqa meşələri, yainki elə ondan da böyük səhralıqlar yoxdur, insan hər dəfə başını qaldırıb yan-yörəsinə baxanda bir təzəliklə, ana təbiətin bir əsrarəngiz gözəlliyi ilə rastlaşır. Naxçıvanın təbiət emblemi kimi tanınan və naxçıvanlıların "Haça dağ" adlandırdıqları bu təbiət heykəlinin arxa tərəfindəki sərt qayalıqlar, sonra yavaş-yavaş mülayimləşən yollar, yastanlar və dərənin lap dibindən özünə yol-iz salan su sızıntıları, bu sızıntılardan həyat gücü alan yaşıl talalar, adda-budda gözə dəyən azman ağaclar, təpələrə, dağ döşlərinə səpələnmiş naxırlar, sürülər və hərdən bu var-dövləti haylayıb harayalayan çoban səsləri təbiətin harmoniyası ilə bir ahəngdarlıq yaradır. Bu yerlər Culfa rayonunun dağ kəndi olan Şurud səmtindədir.*

Bu kənd haqqında nə qədər ora-bura əl atdımsa, əməlli-başlı elmi, yaxud qeyri-elmi məlumat tapa bilmədim. Sovet dövründə hazırlanmış ensiklopediyada Şurud barədə "çox xəsisliklə" bir-iki rəqəm yazılıb, 1986-cı ilin məlumatıdır. Yazılan da ondan ibarətdir ki, Culfa rayonunun kəndidir, rayon mərkəzindən 36 kilometr aralıda dağətəyi zonada yerləşir, 116 nəfər əhalisi var, kənddə məktəb, klub mövcuddur, vəssalam. Rəqəmlərə inandım, amma nə əcəb ensiklopediya müəllifləri o vədə divarları uçhauçda olan, palçıqdan hörülmüş torpaq binanı məktəb, 5-6 sınıq-salxaq stul qoyulmuş və qapısı aylarla açılmayan otağı klub adlandırıblar. Yəqin ki, o vaxtkı dönəmin növbəti başaldatmalarından özgə bir şey deyilmiş. "Naxçıvan Ensiklopediyası"nda yazılanlar daha dəqiqdir. Burada Şurudun Culfadan 36 kilometr yox, 23 kilometr şimalda yerləşdiyi, əhalisinin isə 163 nəfər olduğu göstərilir. Kənddə klub, orta məktəb, həkim ambulatoriyası, habelə 2 kitabxana vardır. Bu yazılanlar isə 2000-ci ilin məlumatıdır. Şurud 4 tərəfdən dağlar, təpələrlə əhatə olunub və kəndin hündür yerindən baxanda Gəmiqaya apaydın görünür. Və yadıma düşür ki, Gəmiqayanın o üzündə – Qərbi Azərbaycanda "Şurud" adının həmqafiyəsi kimi səslənən daha iki kəndimiz olub və var: Kurud və Urud. Əlbəttə, belə araşdırmalar tədqiqatçıların işidir. Ona görə də qayıdıram Şurud haqqında bildiklərimə. Şurud tarixi kənddir. Ondan ötrü yox ki, yaranma tarixi neçə-neçə əsrlərin o üzündən gedib çıxır, ona qalsa, Şuruddan da qədim yaşayış məntəqələrimiz az deyil. Bəs onda bu kəndin tarixiliyi nə ilə bağlıdır? Qayıdaq bir az əvvələ. Keçmiş imperiya qurulanda hökumət elan elədi ki, torpaq kəndlinindir. Və üstündən 5-10 il keçəndən sonra ortaya kolxoz məsələsi çıxdı və kimə nə vaxt, nə qədər torpaq verilmişdisə, əllərindən alıb qatdılar kolxoza.

Kənddə kolxoz deyilən oyunbazlıqla dolu təsərrüfat formasının adı vardı və bundan da 5-10 nəfər faydalanırdı. Ona görə də hələ 1970-ci illərdə Şurud kolxozu sovxoza çevrildi və təsərrüfatı Xanağa kəndindəki dövlət təsərrüfatı ilə birləşdirdilər. Bu birləşməni o vədə belə əsaslandırmışdılar ki, guya Xanağa ilə Şurud qonşu kəndlərdir. Bir-birinə əl uzatsan, çatasıdır və araларındakı məsafə də heç 3 kilometr deyil. Halbuki bu iki kəndi bir-birindən 13 kilometrlik bir məsafə ayırırdı. Şurudlu bir arayışı almaq üçün gərək pay-piyada üz tutaydı Xanağaya. Ona görə pay-piyada deyirəm ki, o vədə şurudlunun avtomaşını hardaydı, olsaydı-olsaydı, bir arıq yabısı, yainki bir ulağı olardı, ya olmazdı.

Yazımın bu məqamında qayıdıram bu günümüzə. Kənd adamının söhbətindən aydın oldu ki, Şurudda heç olmasa, bir nəqliyyat vasitəsi olmayan ailə yoxdur. Onu da bildirdilər ki, hələ bu harasıdır, Arifin, Ələmdarın, Farizin, İlhamın, Elnurun hərəsinin iki maşını var.

Oxucuya çatdırdım ki, Şurud tarixi kənddir. Və bu tarixiliyi açıqlamaq elə buradaca yerinə düşərdi. Sovetlər dönəmində şurudluların güzəranı o qədər də ürəkaçan olmayıb. Kollektiv təsərrüfat bu ucqar dağ kəndində özünü doğrultmurdu, di gəl ki, o vaxtkı raykomun, ispolkomun və neçə-neçə belə "kom ların hünəri çatmırdı, daha yuxarılara çatdırsın ki, balam, bu camaatın dolanışığına bir əncam qılın. Çünki "proletariatın dahi rəhbəri"nin təbirincə, kəndin kollektivləşməsi kəndlinin yağ-bal içində üzməsi demək idi.

Tale bu yurdun insanlarının üzünə güldü. Ötən əsrin 90-cı illərinin əvvəllərində ümummilli lider Heydər Əliyev Naxçıvana gəldi. Ulu öndərin ilk təşəbbüslərindən biri də belə təsərrüfatların, yəni özünü doğrultmayan kolxozların ləğv edilməsindən ibarət oldu. Bu təşəbbüs ilk dəfə Culfa rayonunun Şurud kəndində həyata keçirildi. Göstəriş də belə oldu ki, kolxozun bütün varidatı və torpaqları bərabər surətdə həmin kəndin sakinlərinə paylansın. Böyük Yaradan şurudlulara ürəkləri istəyincə torpaq vermişdi və hesablayıb gördülər ki, uşaqlı-böyüklü adambaşına 2,2 hektar torpaq sahəsi düşür. Torpaq payı bir neçə yerdən bölündü, əsas hissəsi də dəmyə torpaqlar oldu. Amma kənd adamları bu yerlərdən bacarıqla istifadə etməyə başladılar; dədə-baba əkinçilik üsullarını işə saldılar, örüşlər, otlaqlar, biçənəklər camaatın karına gəldi, əkinçilik, heyvandarlıq, maldarlıq, bağçılıq, arıçılıq ilbəil təşəkkül tapmağa başladı. Qapısından quzu mələrtisi gəlməyən şurudluların naxırları, sürüləri kəndi dövrələyən yolyamaca, dağ döşlərinə yayıldı. Yaşı 83-ü adlayan Əli kişi ilə söhbət edirəm, Əli Şəkərəliyevlə. Söhbətcil adamdır, üstəlik, hər sözbaşı dediyi bir qoşma, bayatı, bir şeir parçası söhbətinə şirinlik qatır.

– Oğul-uşağın hamısını yerbəyer eləmişəm, – deyir. – Amma işsizgücsüz qala bilmirəm. Kartof, kələm əkirəm, 10 baş qaramalım, 50 baş davarım var, 15 arı ailəsi saxlayıram. Şurud torpağı bərəkətlidir, bu il tondan çox kartofum oldu. Özümə artıqlığınca bəs eləyən meyvə-tərəvəz də onun kimi. Nə bazara, nə dükana, nə də doğmaya, yada ehtiyacım var. Hələ imkanım düşdükcə, mən onlara əl uzadıram. Bilirsən, burda şair nə təhər deyib? Deyib ki:

*Ucal kamalınla, alın tərinlə,*
*Zirvələr yaransın qoy əməlinlə*
*Xeyirsiz-bəhrəsiz gəzmə dünyada.*

Söz sözü, söhbət söhbəti gətirir. Əli kişi özündən çox şurudluları tərifləyir, "işgüzar, zəhmətkeş adamlardır", – deyir. – Hamısını yaxşı tanıyıram, bu əlimin içi kimi.

Və ovcunu açıb göstərir, əlinin içində qabarlar görürəm. Bunlar kərəntinin, belin, orağın qabar izləridir. Dağ kəndinin hər yerində texnika, maşın, traktor kara gəlmir.

Şuruda çox yolum düşüb, insanlarını da az-çox tanıyıram, o var ki, bu yerlərin axarlı-baxarlı vədəsi yaz, bir də yayın əvvəlləri olur. Göy dağ, Qara dərə, Qara Nəbi, Məmməd düzü, Yarpaqlı, adlarının çoxunu unutduğum bu yol-yamacların hər qarışı bir cənnətməkandır, iki göz istəyir ki, tamaşa eləsin.

Əli kişi Şurudu dövrələyən təpələrə, dağlara, yal-yamaclara nisgillə baxır, – hə, qardaş, – deyir:

*Dağlar marala qaldı,*
*Otu sarala qaldı.*
*Yaşıl tala, göy çəmən,*
*Yenə marala qaldı.*

– Amma qışdan sonra yenə yaz gələcək, yenə dünya öz gözəllik donunu geyəcək, yenə dağların qarı əriyəcək, dərələri dolduran lilpar sular dağların, təpələrin yan-yörəsinə həyat eşqi bəxş edəcək, yenə bu düz-dünzəngahlardan bənövşə ətri gələcək, şəfalı otlar dirilik suyu kimi ömrümüzün üstünə ömür qoyacaq: bunları da mən deyirəm.

Şurudlular ələbaxan deyillər. Soruşdum ki, kənddə dövlətdən yardım alan varmı, məsələn, ünvanlı sosial yardım? Dedilər, Allaha şükür, əlimizə, ayağımıza nə gəlib, bu boyda torpağımız, örüşümüz, otlağımız olaola hökumətdən yardım istəyək? Hələ indiyəcən bir şurudlu nə rayon təşkilatlarına, nə də respublika təşkilatlarına belə yardımlar üçün müraciət etməyib.

Gün-günorta yerində idi. Kənd məktəbinin direktoru Müşfiq müəllimin yaşıllığa bürünmüş bağçasında nahar süfrəsi açılmışdı. Stolun üstündəki nemətlərə göz gəzdirdim, dükan-bazardan alınan bir təam da gözə dəymirdi, hamısı Şurud torpağının yetişdirdiyi məhsullar idi. Müşfiq müəllimin kefi kökdür, niyə də olmasın. Bu il Şurud məktəbini beş nəfər bitirib, beşi də ali məktəbə daxil olub, ikisi 500-dən yuxarı, ikisi isə 400-dən yuxarı bal toplayıb. Müəllim üçün bundan böyük xoşbəxtlik nə ola bilər?

Şurudda Mirəli İmaməliyevi kənd ağsaqqalı kimi tanıyırlar, sinni 80-i çoxdan arxada qoyub. Necə deyərlər, bir çətən oğul-uşağı, nəvəsi, nəticəsi var. Amma o böyüklükdə ev-eşikdə, həyət-bağçada ömür-gün yoldaşı ilə yaşayır. Keçən yay yolum Şuruda düşmüşdü, Mirəli kişinin həyətində bir qələbəlik, bir çal-oynasın vardı ki, dedim bəs toy məclisinə düşmüşəm. Sən demə, Mirəli kişinin oğul-qızları, nəvə-nəticələri Bakıdan gəliblər ki, dağ kəndində istirahət eləsinlər. Nədən ki, Şurudun havası, yazın axırları, yayın əvvəllərindəki gülzarlığa bürünmüş yal-yastanları, dörd tərəfə çitənmiş çiçəkliklər, çəmənliklər dünyanın mənəm-mənəm deyən kurortlarının arxasını yerə vurar. Təkcə bunlarmı? Mirəli kişinin öz əli ilə əkib ərsəyə gətirdiyi neçə cür meyvə ağaclarından bal daman meyvələr, səhər-səhər sarı inəyin südü, keçi pendiri, qoyun qatığı, evin arxasına düzülən və sayı-hesabı bəlli olmayan arı pətəklərinin balı, sac lavaşı, daha nələr-nələr qonaqları gözləyirdi.

Yazımın bu yerində bir məsələyə aydınlıq gətirmək istəyirəm. Çünki oxucu elə düşünməsin ki, şurudlular Şurudu tərk edirlər, xeyr. Əksinə, kəndin sakinlərinin sayı ilbəil artır, amma o da var ki, dağ kəndindən çıxıb dağ kəndinə sığışmayan mütəxəssislər də az deyil. Kənddə öyrəndim ki, ən azı 50 şurudlu ailəsi Naxçıvan şəhərində, Bakıda, başqa şəhərlərdə yaşayır və ən önəmlisi də budur ki, heç kəs ata-baba yurdunu unutmur. Eyni zamanda gənc ailələrin də sayı ilbəil artır və hazırda Şurudda 27 ailə, 46 təsərrüfat var. Əhalisinin də sayı 190 nəfəri ötüb. Bəli, yazdıqlarımı ensiklopediya məlumatları da təsdiqləyir. 1986-cı ildə 116 nəfər, 2000-ci ildə 163 nəfər, 2013-cü ildə 190 nəfər. Hələ Şuruddan kənarda yaşayan şurudluları bura qatmıram.

Kənddə adambaşına 2,2 hektar torpaq düşməsinə baxmayaraq, suvarılan torpaq, demək olar ki, yoxdur; su həyətlərə uzanan rezin borularla qayda-qanunla, növbə ilə verilir, verilir ki, o qədər də böyük olmayan həyətlərin ağac-budağı, ailə ehtiyaclarını ödəyəcək tərəvəz, göyərti ləkləri qurumasın. Amma haqqına demək lazımdır ki, həyət-bağçaların yaşıllığına söz ola bilməz. Kəndin icra nümayəndəsi Cəbrayıl Nuriyevin həyətindəki tut ağacının kölgəsinə qoyulmuş kətillərdə Hüseyn müəllim oturub, 83-84 yaşlı Əli kişi oturub, Əli Orucov və başqaları da oturub, söhbət yenə işdən-gücdən gedir, lap çox da su məsələsindən, telefon xidməti məsələsindən. Deyirlər ki, kənddə hamının evində telefon var, birbirləri ilə rahat danışırlar. Amma kənddən kənar biri ilə danışanda gərək biri danışıb qurtara, sonra o birinə imkan yarana. Şurudda bir neçə kəhriz var: Şah Abbas kəhrizi, Kənd kəhrizi, Yarpaqlı kəhrizi. Dediklərinə görə, əsasən, Şah Abbas kəhrizinin suyundan istifadə edirlər, o biri kəhrizlərin təmirə ehtiyacı var. Fikirləşdim ki, muxtar respublikada ən müasir rabitə xidməti və ən güclü suvarma sistemi mövcuddur. Azərbaycandakı yeganə Kəhrizlər İdarəsi də Naxçıvandadır. Bütün kəhrizlər də bu idarənin nəzarətindədir, təmir edirlər, qaydaya salırlar, suyunun yolun-yolağasın açırlar… Yəqin ki, yaxın zamanlarda Şuruddakı kəhrizlər də bərpa olunacaq.

Yarpaqlı kəhrizi dedim, Yarpaqlı yadıma düşdü. Kənddən bir neçə kilometr aralıda olan Yarpaqlıda o qədər də ağac-budaq gözə dəymir və şurudluların dədə-babaları dağ dolaylarının o üzündəki bu geniş düz-dünzəngaha nə əcəb bu adı qoyublar? Keçənilki yazın axırlarında Yarpaqlıya getdim. İlahi, bir gözəllik, gələnləri valeh edən cənnətməkan bir guşə, nağıllarda deyildiyi kimi, gül gülü, bülbül bülbülü çağırır. Təbiətin bu gözəlliyinə bir insan saflığı da qarışmışdı: bu gözəlliyin dörd yanına yüzlərlə, bəlkə, daha çox arı pətəkləri düzülmüşdü – nə bir gözləyəni vardı, nə bir qoruqçusu, nə bir keşikçisi.

Soruşdum ki, bunların bir sahibi, yiyəsi var, ya yox?

Şurudlu yol yoldaşım cavab qaytardı ki, bu qədər var-dövlətin yiyəsi, sahibi olmazmı? Amma kimsə kimsənin malına əl uzatmaz. Çünki dünyanın yeganə canlısıdır ki, arı halallıq sevir, haram əl dəydisə, hər şey fani olub gedir.

Naxçıvan şəhərinə Günəş səhər ertə Haça dağın ortasından boylanır, Şurudda isə Haça dağın arxasında batır. Dünyanın bir möcüzəsi də bu deyilmi? Və Əlahəzrət Günəş Haça dağın o üzünə tərəf səmt alanda mən də yazı-pozu ləvazimatımı götürüb bir parça qismət kəsdiyim, suyundan içdiyim, söz-söhbətlərindən bu yazımı ərsəyə gətirəcəyim insanlarla sağollaşıram. "Salamat qalın!" deyirəm, Göy dağ, Qara dərə, Nəbi yurdu, Məmməd düzü, suyu bal dadan Şah Abbas kəhrizi, bir ağacı, yarpağı olmayan, cənnətməkan Yarpaqlı düzdüzəngahı, salamat qal, Şuruddan görünən Peyğəmbər yadigarı Gəmiqaya, o üzdəki doğma torpaqlarımız Kurud, Urud, salamat qal, tanıdığım, tanımadığım insanlar! Sizə "əlvida" demirəm, "salamat qalın, salamat qalın" deyirəm, sabah təzədən sizə salam vermək üçün. Və bilin ki, muxtar respublika rəhbərinin diqqət və qayğısı bütün kəndlərimizin üstündədir; o cümlədən Şurudun da. Bir də arxayın olun ki, çiyninizdə qüdrətli bir əl, arxanızda hər an sizin qayğınızı çəkən bir qüvvə durur – bu, Azərbaycan dövlətidir, sənin, mənim – hamımızın dövləti.

***H**ər il muxtar respublikamızın neçə-neçə kəndində kompleks quruculuq tədbirləri həyata keçirilir, kəndlərimiz gündən-günə abadlaşır. Doğrudur, Şurud kəndində də bir neçə il bundan əvvəl quruculuq işləri həyata keçirilib, məktəb binası tikilib. Şurudda da kompleks quruculuq işlərinin aparılacağına, bu kəndin daha müasir yaşayış məntəqəsinə çevriləcəyinə bütün şurudlular ürəkdən inanırlar.*

**Nurəddin BABAYEV**

Cari ilin taxıl tədarükü mövsümünü uğurla başa çatdıran muxtar respublikanın torpaq mülkiyyətçiləri, sahibkar və fermerlər havaların əlverişli keçməsindən səmərəli istifadə etməyə səy göstərirlər. Onlar 2014-cü ilin bol məhsulunun əsasını qoymaq üçün

## Şum qaldırılması davam etdirlir

şum qaldırılmasını sürətlə davam etdirirlər. Bunun üçün əvvəlcədən görülən hazırlıq tədbirləri bəhrələrini verir. Yanacaq tədarükü, texnika üçün zəruri ehtiyat hissələrinin əldə olunması diqqət mərkəzində saxlanıldığından şum qaldırılmasında ciddi problemlərlə üzləşilmir. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyindən aldığımız operativ məlumata görə, muxtar respublikada sentyabr ayının 23-dək 7 min 680 hektar sahədə şum qaldırılıb. Şum qaldırılmasında keyfiyyət amilinə ciddi diqqət yetirilir. Çünki məhsuldarlığın artırılmasında keyfiyyətli şum xüsusi əhəmiyyətə malikdir.

Babək rayonunun taxılçıları 2840 hektar sahəni əkinəyararlı vəziyyətə gətiriblər. Şum qaldırılmasında babəklilərdən sonra şərurlular irəlidə gedir. Bu bölgədə 1695 hektar sahə şumlanıb. Kəngərli rayonunda isə hələlik 1200 hektar sahədə şum qaldırılması başa çatdırılıb. Culfalılar 805 hektar sahədə şum qaldırılmasını yekunlaşdırıblar. Ordubad rayonunda 407, Şahbuzda 358, Sədərək rayonunda 240, Naxçıvan şəhərində isə 135 hektar sahə şumlanıb.

Şum qaldırılması sürətlə davam etdirilir.

## Qış aylarında yerli meyvə-tərəvəz məhsulları bol olacaq

Muxtar respublikamızda həyata keçirilən iqtisadi inkişaf strategiyasının mühüm bir istiqaməti də əhalinin ilin bütün fəsillərində yüksəkkeyfiyyətli ərzaq məhsullarına olan tələbatının ödənilməsidir. Bu məqsədlə idxaldan asılılığın tədricən azaldılaraq aradan qaldırılması üçün geniş soyuducu anbar və istixana kompleksləri yaradılmaqda, onların gücündən istifadə olunmaqdadır. Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyindən bu barədə redaksiyamıza daxil olan son məlumatda bu ilin 1 iyul tarixindən 23 sentyabradək muxtar respublikada fəaliyyət göstərən soyuducu anbarlara tədarük edilən meyvə-tərəvəzin həcminin 650 tona çatdığı bildirilir. Builki payızda yetişdirilmiş bol məhsulun anbarlara tədarükü qarşıdakı qış fəslində muxtar respublika əhalisinin keyfiyyətli yerli məhsullarla təmin olunacağından xəbər verir. Xatırladaq ki, hazırda muxtar respublikada ümumi tutumu 11 min 770 ton olan 14 soyuducu anbar fəaliyyət göstərir.

**Xəbərlər şöbəsi**

# "Araz-Naxçıvan"dan maksimum nəticə

***Birinci divizionun ikinci turunda "Araz-Naxçıvan" futbol komandası ilk rəsmi "ev" oyununda Şəmkirin eyniadlı komandasını sentyabrın 22-də Naxçıvan Muxtar Respublika Stadionunda qəbul etdi. İlk turda başqa bir qərb təmsilçisi "Turan T"-ni məğlubiyyətə uğradan muxtar respublika klubu bu matçda da qələbəni bayram edib, liderlər qrupunda qərarlaşmaq istəyirdi. Odur ki, "ev" oyunu qırmızı-ağlar üçün böyük önəm kəsb edirdi. Xüsusilə 12 il bundan öncə bu arenada "Şəmkir"ə məğlub olan komandamız bu dəfə mütləq qələbə qazanmalı idi.***



### *Asan hesab edilməyən rəqib – "Şəmkir"*

"Araz-Naxçıvan" çıxış etdiyi 2000-2001 və 2001-2002-ci illər mövsümlərində "Şəmkir"lə 4 dəfə qarşılaşmış, onların 2-də məğlub olmuş, bu arenada keçirilən görüşdə isə hesab açılmamışdır. Həmin dövr şəmkirlilərin ən parlaq illəri hesab edilirdi. Belə ki, Azərbaycanın ən istedadlı futbolçularını heyətinə cəlb edən qərb klubu məhz bu iki mövsümdə çempionluq sevinci yaşamışdır. Bununla yanaşı, "Qızıl oyun"la çempion olduğu dövrdə şəmkirlilər Çempionlar Liqasında böyük əzmkarlıq göstərmiş və tur adlamışdır. Elə 2001-2002-ci il mövsümünü də lider kimi başa vuran şəmkirlilər yenə UEFA kubokunda baxımlı oyunları ilə yadda qalmışdılar. Belə bir komandaya qarşı oynamaq, təbii ki, yeni formalaşan bir klub üçün asan deyildi.

Daha çox hücum futbolu oynayan "Şəmkir"in Naxçıvanda bir qədər müdafiətipli oyuna üstünlük verəcəyi gözlənilən idi. Çünki qərb klubu yaxşı bilirdi ki, muxtar respublikadan xalla qayıtmaq mümkün olmayacaq. Odur ki, komandanın məşqçisi Ruslan Abbasov ən yaxşı halda qapılarından daha az qol buraxmağı yetirmələrinə tapşırmışdı. Meydana komandanın əsas futbolçularını buraxan baş məşqçi 4-2-3-1 taktikasını seçmişdi. Oyunu rəqibi əks-hücumda tutma taktikasında quran Ruslan Abbasov eyni zamanda müdafiəni də gücləndirmişdi. Baş məşqçi bütün oyunu Vüsal İbrahimovun üzərində qurmuşdu.

### *Hər iki hissənin qalibi – "Araz-Naxçıvan"*

"Araz-Naxçıvan"a gəlincə, ilk matçda 4-5-1 taktikasına üstünlük verən baş məşqçi Əsgər Abdullayev bu görüşdə bir qədər dəyişiklik etmişdi. Onun belə addım atmasına əsas səbəb komandanın kapitanı Emin İmaməliyevin zədəli olması və meydana çıxa bilməməsi idi. Emin İmaməliyevin işi isə meydanda Eşqin Quliyevə həvalə olmuşdu. Bütün hücumları Eşqin Quliyevin üzərində quran Ə. Abdullayev həmçinin cinahlardan da rəqibin müdafiəsini yarmağı düşünmüşdü. Bəxtiyar Soltanov, Elgün Abbaslı və Elmin Çobanov hücumun sivri ucunda Rəhman Musayevə dəstək olmaqla yanaşı, rəqib qapıya tez-tez zərbələr endirmək tapşırığını almışdılar. İlk oyundan fərqli olaraq, bu dəfə qapını qorumağı baş məşqçi Nicat Əliyevə tapşırmışdı. Müdafiənin dördlüsündə isə Mikayıl Rəhimov, Cavid Həsənov, Ruslan Abıyev və Əlimirzə Daşzərini nəyə qadir olduqlarını göstərdilər.

Oyun "Araz-Naxçıvan" üçün yaxşı başladı. Elə ilk dəqiqələrdən hücuma atılan qırmızı-ağlar rəqib qapısı önündə lövbər salmağa başladılar. Daha çox cinahlardan gələn asmaları hava mübarizəsində qazanan komandamız hesabı 18-ci dəqiqədə açmağa müvəffəq oldu. Sol cinahda "Şəmkir"in kobud oyunu hakimin diqqətindən yayınmadı. Təyin olunmuş cərimə zərbəsini isə Əlimirzə Daşzərini birbaşa qapıya göndərməklə tablodakı sıfırları dəyişdi. Qeyd edək ki, bu, Əlimirzənin "Araz-Naxçıvan"ın heyətində üçüncü qoludur. Qoldan ruhlanan meydan sahibləri hücumlarının sayını daha da artırmağa başladılar. Cinahdan edilən asmalarda Ruslan Abıyev hamıdan yüksəyə tullansa da, top qapıdan aralı keçdi.

Oyunun gedişində bütün komponentlərdə üstün olan "Araz-Naxçıvan" ilk hissədə bir qədər maraqlı addım atdı. Belə ki, baş məşqçi Əsgər Abdullayev əvvəlcə 32-ci dəqiqədə Fərman Qəmbərovu Elgiz Kərimli ilə əvəzlədi və orta xətdə liderliyi ələ keçirməyə müvəffəq oldu. İlk hissənin başa çatmasına bir dəqiqə qalmış isə Rəhman Musayev Amil Həsənovla əvəzləndi. A.Həsənovun oyun təcrübəsinin bir qədər az olması həmin cinahda "Şəmkir"li futbolçuların rahat hərəkət etməsinə səbəb oldu. İlk hissədə, demək olar ki, muxtar respublika klubu bir neçə epizodda hesab arasındakı fərqi artıra bilərdi. Xüsusilə Bəxtiyar Soltanovun sağ cinahdan etdiyi driblinqlər və verdiyi ötürmələr alqışlarla qarşılandı.

İkinci hissə də komandamızın hücumları ilə başladı. Bir qədər hücumameyilli futbol oynamağa başlayan "Araz-Naxçıvan" rəqib qapıçını daha çox cinahlardan narahat edirdi. Belə hücumların birində qapıçı ilə üzbəüz qalan Bəxtiyar Soltanov qırmızı-ağların heyətində ilk qoluna imza atdı. O, müdafiəçiləri geridə qoyaraq topu qapıçının başı üzərindən tora göndərdi – 2:0. Bu qol həm də komandamızın bir qədər sakit oynamasına səbəb oldu. Yarımmüdafiə xəttində Eşqin Quliyevi Akif Tağıyevlə əvəzləyən Əsgər Abdullayev yetirmələrinə daha çox uzaqdan zərbələrlə hesabı artırmağı tapşırdı. Bir epizodda Amil Həsənov qola yaxın olsa da, buna bir qədər dəqiqlik çatmadı. Ancaq "Araz-Naxçıvan" istəyinə 71-ci dəqiqədə nail oldu. Epizodların birində cərimə meydançasında yaranan qarışıqlıqdan Bəxtiyar Soltanov layiqincə istifadə etdi. O, qapıçıdan dönən topu boş qapıya göndərməklə oyunda dublunu rəsmiləşdirdi. Artıq qələbəni tam olaraq sığortalayan qırmızı-ağlar son 10 dəqiqədə daha iki dəyişiklik etdi. Hesabı qorumaq istəyən Əsgər Abdullayev hücumçunu müdafiəçi ilə əvəzlədi. Ancaq son dəqiqədə qapıçı Nicat Əliyevin kobud səhvindən "Şəmkir" bacarıqla istifadə etdi. N.Əliyevin uzaqlaşdırmaq istədiyi top "Şəmkir"li Vüsal İbrahimovun qarşısına düşdü. O da boş qapını dəqiq nişan almaqla hesab arasındakı fərqi ikiyə endirdi. Bundan sonra oyunda başqa qol olmadı və "Araz-Naxçıvan" ilk rəsmi "ev" oyununda rəqibi məğlub etməyi bacardı – 3:1. Bu qələbədən sonra komandamız 2 oyundan maksimum xalla (6 xal) "Neftçala" və "Qaradağ Lökbatan"la birlikdə liderlər cərgəsində qərarlaşıb.

Qeyd edək ki, "Araz-Naxçıvan" növbəti oyununu sentyabrın 29-da səfərdə keçirəcək. Komandamızın budəfəki rəqibi İmişli təmsilçisi "Mil-Muğan"dır.

### *Baş məşqçilərin fikirləri...*

*Ruslan Abbasov ("Şəmkir"in baş məşqçisi):* "Oyun istədiyimiz kimi başlamadı. Birinci qoldan sonra futbolçularım sanki özlərini itirdilər. Əgər ilk hissədə hesabı bərabərləşdirə bilsəydik, o zaman oyun başqa cür olardı. Ancaq alınmadı. Komandanın növbəti turlarda daha inamlı oynayacağını düşünürəm. "Araz-Naxçıvan"a qarşıdakı oyunlarda uğurlar arzulayıram".

*Əsgər Abdullayev ("Araz-Naxçıvan"ın baş məşqçisi):* "İlk olaraq, futbolçularımızı, stadiona gələn bütün azarkeşləri qələbə münasibətilə təbrik edirəm. İlk "ev" oyununda qələbə qazanmaq istəyirdik, buna da nail olduq. Hesab daha böyük olardı, ancaq bir qədər səhvlərimiz oldu. İndi bu səhvlər üzərində çalışıb digər oyunlarda bunu təkrarlamaq istəmirik. Oyunçuların hər biri meydanda əzmkarlıq göstərdi. Qarşıdakı oyunlarda hazırlaşıb qələbələrimizi davam etdirmək istəyirik".

**Ceyhun MƏMMƏDOV**

# Culfada bir gündə altı cərrahi əməliyyat aparılmışdır

Son illərin quruculuq ünvanlarından biri olan Culfa Rayon Mərkəzi Xəstəxanasında əhalinin müayinə və müalicəsi üçün lazımi şərait yaradılmışdır. Müasir tibbi avadanlıqların quraşdırıldığı, zirzəmi ilə birlikdə üç mərtəbədən ibarət 50 çarpayılıq xəstəxanada hazırda 26 həkim, 56 tibb işçisi çalışır. Xəstəxanada Stasionar, Poliklinika, Təcili yardım şöbələri fəaliyyət göstərir. Burada həmçinin yoluxucu xəstəliklər, pediatriya, doğuş və ginekologiya, cərrahiyyə, terapiya bölmələri vardır. Rayon Mərkəzi Xəstəxanasında cərrahiyyə bölməsi yeni sahələrdən biridir. Bölmənin müasir cərrahi avadanlıqlarla təchiz edilməsi xəstələrin rayondan kənara getmədən, elə bu səhiyyə müəssisəsində müalicələrinə imkan verir.

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin cərrahları burada yaradılmış şəraitdən səmərəli istifadə edərək indiyədək 10-dan çox müxtəlif cərrahi əməliyyat həyata keçirmişlər. Növbəti əməliyyatlar isə ötən şənbə günü keçirilmiş, bir gündə 20 xəstə müayinə olunaraq onlardan 6 nəfəri üzərində cərrahi əməliyyat aparılmışdır. Bu əməliyyatlar Diaqnostika-Müalicə Mərkəzinin cərrahları Abasət Hüseynəliyev, İsa Abdullayev, Şahin Məmmədli, Nazim İbrahimov, anestezioloq Ənvər Şıxəliyev və əməliyyat blokunun tam heyəti tərəfindən icra olunmuşdur. Əməliyyat olunan xəstələr – İntiqam Əliyev, Zakir Həbibov, Günay Hüseynova birgünlük müşahidədən sonra evlərinə buraxılmışlar. Həmin gün Yaycı kəndindən aztəminatlı Rzayevlər ailəsinin 2 övladı üzərində də cərrahi əməliyyatlar aparılmışdır. Uşaqların nənəsi Solmaz Tağıyeva bu humanitar aksiyanı ölkəmizdə əhalinin sağlamlığının qorunmasına dövlət qayğısının parlaq ifadəsi kimi dəyərləndirmişdir.

# Xroniki böyrək çatışmazlığının müalicəsində müasir üsulların tətbiqinə dair elmi-praktik seminar

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində xroniki böyrək çatışmazlığının müalicəsində müasir üsulların tətbiqinə dair elmi-praktik seminar keçirilmişdir.

Mərkəzin baş həkiminin müalicə işləri üzrə müavini Zaur Həsənov tədbiri giriş sözü ilə açaraq dünyada xroniki böyrək çatışmazlığı ilə xəstələnmə hallarının durmadan artdığı bir dövrdə müasir müalicə üsullarının tətbiqinə daha geniş yer verilməsinin zərurətə çevrildiyini bildirmişdir. Qeyd olunmuşdur ki, hazırda bir sıra ölkələrdə hər 1 milyon nəfərdən 800-1400-ü xroniki böyrək çatışmazlığından əziyyət çəkir. Onlardan 250-750 nəfərinə hemodializ müalicəsi tətbiq edilir. Dializ böyrək çatışmazlığının əsas əvəzedici üsulu olub, xəstənin həyatının xilas edilməsinə, ömrünün uzadılmasına və səhhətinin yaxşılaşmasına xidmət edir.

Ölkəmizdə dializ yardımının təkmilləşdirilməsi və keyfiyyətinin yaxşılaşdırılması üçün dövlət tərəfindən bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilir. 2006-cı ildən "Xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı"nın qəbulu ilə əlaqədar xəstələrin dövlət təminatı hesabına ixtisaslı müalicəsi və dərman təchizatı mümkün olmuşdur. Hazırda respublikamızın 22 dializ mərkəzində 1600-dən artıq xəstə dövlət vəsaiti hesabına dializlə təmin olunur.

Tədbirdə vurğulanmışdır ki, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi funksional və başqa tədqiqat metodlarından istifadə etməklə müayinəni həyata keçirən aparıcı tibb müəssisəsi rolunu oynayır. Hazırda burada 10, Naxçıvan Muxtar Respublika Xəstəxanasında 3, Ordubad Rayon Mərkəzi Xəstəxanasında 2, Culfa Rayon Mərkəzi Xəstəxanasında 2, Şərur Rayon Mərkəzi Xəstəxanasında 3 dializ cihazı fəaliyyət göstərir. Bu günlərdə açılışı olacaq Babək Rayon Mərkəzi Xəstəxanasında da 2 dializ aparatı tibbi heyətin istifadəsinə veriləcəkdir.

Bildirilmişdir ki, muxtar respublikamızda yaşayan 77 xəstənin 53 nəfəri Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində hemodializ müalicəsi almaqdadır. İl ərzində, əlavə olaraq, muxtar respublika qeydiyyatında olmayan və ya bura qonaq gəlmiş 42 xəstəyə dializ müalicəsi həyata keçirilmişdir. Bütövlükdə, ilin əvvəlindən bəri Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində 4823 hemodializ seansı aparılmışdır. Hazırda xroniki böyrək çatışmazlığı üzrə tədbirlər proqramının icrası mərkəzdə uğurla davam etdirilir.

Sonra Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi Hemodializ şöbəsinin müdiri Mustafa Əliyev xroniki böyrək çatışmazlığının müalicəsi barədə məruzə etmiş, tədbir iştirakçılarının suallarını cavablandırmışdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Sağlamlıq imkanları məhdud uşaqlar müalicə üçün Ukrayna Respublikasına göndəriliblər

Muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının təmin olunması, sağlamlıqlarının qorunması, tibbi-sosial reabilitasiyalarının təşkili həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir. Bu kateqoriyadan olan uşaqların xarici ölkələrdə müalicəsi də daim diqqət mərkəzində saxlanılır. Sentyabrın 22-də muxtar respublikadan 18 yaşadək sağlamlıq imkanları məhdud 8 uşaq valideynləri ilə birlikdə Ukrayna Respublikasının Evpatoriya şəhərində fəaliyyət göstərən sanatoriyaya müalicəyə göndərilib. Uşaq serebral iflici diaqnozu qoyulmuş sağlamlıq imkanları məhdud uşaqlar bu sahə üzrə ixtisaslaşmış reabilitasiya mərkəzində müalicə kursu keçəcəklər.

Qeyd edək ki, bu ayın əvvəlində nazirliyin təşkilatçılığı ilə 8 sağlamlıq imkanları məhdud uşaq həmin sanatoriyaya müalicə üçün göndərilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Nəzakət Quliyeva, Bəhriyyə Novruzova, İlhamə Nəsirova, Bəhriyyə Əliyeva, Bilqeyis Ələsgərova və Şəhla Əzimova həkim Bəxtiyar Hüseynova, anası **MAXMƏR XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin baş həkimi Kəmalə Qurbanova və mərkəzin həkimlərindən Nüşabə Əliyeva, Nəzakət Gülməmmədova, Səkinə Abutalıbova və Hafizə Mirzəyeva həkim Bəxtiyar Hüseynova, anası **MAXMƏR XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ qapısı**
**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Kərəm Həsənov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 3940. Sifariş № 864**